<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>HIST 341 Mənbəşünaslıq və tarixşünaslıq, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Tarix və Arxeologiya departamenti</td></tr>
<tr><td>Proqram (bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/26-cı tədris ilinin payız semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim</td><td>PhD. Rüxsarə Quliyeva</td></tr>
<tr><td>E-mail:</td><td>rukhsare.guliyeva@khazar.org<br>ruxsaraguliyeva@gmail.com</td></tr>
<tr><td>Telefon:</td><td></td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td></td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Müəllimin təyin etdiyi vaxtda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">Yoxdur</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan dili</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="2">Ədəbiyyat:<br><br>1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, Bakı, 2007.<br>2. Bakıxanov A.A. Gülüstan-i İrəm. Bakı, 2006.<br>3. Moisey Kalankaytuklu. Alban tarixi. Bakı, 1993.<br>4. Mixitar Qoş. Alban xronikası. Bakı, 1993.<br>5. Акты Кавказской Археографической комиссии. I – XII cildlər, Тифлис, 1866- 1904.<br>6. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. I-II cildlər, Bakı, 1998.<br>7. Vəlixanlı N. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974.<br>8. Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı, 2016.<br><br>Dərsliklər:<br><br>9. Azərbaycan tarixi. Bakı, 1996.<br>10. Azərbaycan tarixi. VII cilddə. Bakı, 2007-2008.<br>11. Məmmədova Ş. Tarixin nəzəri problemləri. Mənbəşünaslığa giriş. Bakı, 2008.<br>12. Amrahov Z.J. The sources of the Azerbaijan History. Baku, 2017<br><br>Monoqrafiyalar və elmi tədqiqatlar:<br><br>1. Aşırlı Akif. Azərbaycan mətbuatı tarixi (1875-1920). Bakı, 1920.<br>2. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 2006.<br>3. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. Bakı, 2006.<br>4. Dəlili N. Azərbaycanın cənub xanlıqları XVIII əsrin II yarımilliyi. Bakı, 1979.<br>5. Fərzəlibəyli Şahin. XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı, 2003.<br>6. Ələkbərli Ə.Y. Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı: sənədlərin dili ilə. - Bakı : Nurlan, 2008.</td></tr>
</table>

| | |
|---|---|
| | 7. Əliyev N.A. 1917-1920-ci illərdə Azərbaycanda türk-müsəlman soyqırımları ilk mənbələrdə: Bakı : Nurlan, 2007.<br>8. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 2007.<br>9. Həsənli C. Azərbaycan Respublikası beynəlxalq münasibətlər sistemində, 1918-1920. Bakı, 1993.<br>10. Hüseynzadə Ə. XIX əsrin II yarısında Azərbaycan tarixşünaslığı. Bakı, 1967.<br>11. İsgəndərov A.C. "Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı" Bakı, 2006. Yenə onun: 1918-ci il mart qırğınının<br>12. Piriyev, V. Z. Azərbaycan XIII-XIV əsrlərdə: Bakı- Nurlan, 2003.<br>13. Quliyev Ə, Həsənov İ., Striqunov İ. XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda tarix elminin inkişafı. Bakı, 1960.<br>14. Quliyeva R.B. Azərbaycan Albaniyasının əhalisi. Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2014.<br>15. Məmmədov X. Azərbaycan milli hərəkatı 1875-1918. Bakı, 1996.<br>16. Məmmədova F. Albaniyanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993.<br>17. Səfərov Y.H. Azərbaycanın qədim, erkən orta əsrlər tarixinin tarixşünaslığı: 1960-1995. Bakı, 1998.<br>18. Umudlu V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, 2004.<br>19. Zülfüqarlı M. Azərbaycan tarixinin II respublika dövrünün tarixşünaslığı. Bakı, 2001.<br>20. Малов С.Е. Памятники древнетюркской письменности. Москва-Ленинигрaд, 1951.<br>21. Мамедова Ф. Албания и албанцы. Баку, 2006.<br>22. Сумбатзаде А. С. Азербайджанцы–этногенезис и формирование народа. Баку, 1990.<br>23. Сумбатзаде А.С. Азербайджанская историография XIX-XX вв. Баку, 1982.<br>24. Фарсобин В.В. Источниковедение и его метод Москва, 1983. |
| **Kursun vebsaytı** | https://lib.az/category/6/?page=1<br>www.azerbaijan.az;<br>www.aztarix.azeriblog.com;<br>www.azerbaycanli.org<br>www.history.az<br>www.preslib.az |
| **Kursun təsviri və məqsədləri** | Mənbəşünaslıq tarixi mənbələrin yaranması və onlarda tarixi həqiqətin obyektiv olaraq əks olunmasının qanunauyğunluqlarını öyrənir. Mənbəşünaslıq tarixi mənbələr haqqında elmdir. Eyni zamanda tarixi tədqiqatlarda mənbələrdən istifadə və öyrənilməsinin nəzəriyyə və praktikasıdır. Elm dünyasında "Evristika", Sovet tarixşünaslığında "mənbəşünaslıq" kimi tanınan bu elmi çox cəsarətlə tarixin nəzəriyyəsi adlandırmaq olar. Bu elm çox gəncdir və XIX əsrin əvvəllərində formalaşmışdır. İlk dövrlər yalnız yazılı mənbələrin aşkar edilməsi və tədqiqilə məşğul olsa da, hazırda nəzəri məsələlər onun əsas obyektlərindən biridir.<br>Dünya tarix elmini dərindən araşdırılması üçün onun iki əsas sütununu bilmək vacibdir. Bunlardan biri mənbəşünaslıq, digəri tarixşünaslıqdır. Azərbaycan tarix-şünaslıq elminin müxtəlif dövrlərə görə inkişafı, mərhələləri və tarixə yanaşma proseslərini izləyib təhlil etməliyik. Eyni zamanda Azərbaycan tarixi çərçivəsində tarixçilik ənənələrinin yaranmasından müasir dövrə qədər olan bir prosedur, bu prosedurda müxtəlif xalqların, dövlətlərin, siyasi-vəziyyətin, dinin, mədəniyyətlərin və s. təsirindən söhbət açacaq və bu dəyişkənliyi zamana və mühitə görə təhlil edəcəyik. |

<table>
<tr><td></td><td colspan="3">Bu predmeti tədris edərkən Azərbaycan tarixçiləri ilə yanaşı Osmanlı, Ərəb, Fars, Rus Qərbi Avropa və Amerika tarixçilərinin də əsərlərinə diqqət çəkiləcək, Azərbaycan tarixinə digər qonşu dövlətlərin təsiri, onların təsirinin Azərbaycan tarixçiliyində yeri və rolu da təhlil ediləcəkdir. Həmçinin ilk dəfə olaraq, Azərbaycan tarixşünaslıq elminin inkişaf prosesini şərti olaraq zamanlara görə bölüb müəyyən edəcəyik. Tarixşünaslıq elmi əsaslarla yaranana qədər tarixi təsəvvür və biliklər formasında mövcud olmuşdur. Tarixi keçmişimiz haqqında hər bir dövrdə yaranan yeni qaynaqlar həmin dövrün tarixşünaslıq əsəri hesab olunur.<br>Mənbəşünaslığın məqsədi onun nəzəri-metodoloji prinsipləri əsasında mənbələrin tarixi həqiqətə tam uyğun olaraq öyrənilməsi üsulu, eləcə də, aşkara çıxarma metodunun işlənib hazırlanması, onda toplanmış informasiyaların seçilməsi və sistemə salınmasından ibarətdir.<br>Tarixşünaslığın məqsədi bütün tarixi dövrlərdə yazılmış əsərlərin müqayisəli təhlilini həyata keçirməklə problemlər haqqında yazılmış materialları tədqiqata cəlb etməkdən ibarətdir.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Fənnin ümumi tədrisi prosesində tələbələrdə:<br>- Mənbəşünaslıq və tarixşünaslıq haqqında bitkin, dolğun və obyektiv təsəvvür yaranacaq<br>- Vətən tarixinə, mədəniyyətinə, mənəvi dəyərlərinə sevgi və hörmət hissini daha da artıracaq və vətənpərvərlik ruhunu daha da yüksəldəcəkdir<br><br>Qazanılmış təcrübə<br>- tarixi hadisələrin analizi<br>- tarixi hadisələrə tənqidi və obyektiv yanaşma</td></tr>
<tr><td rowspan="5">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">X</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">X</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">X</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td colspan="2">X</td></tr>
<tr><td>Digər</td><td colspan="2">X</td></tr>
<tr><td rowspan="6">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%), bal</td></tr>
<tr><td>Aktivlik</td><td>Semestr boyunca</td><td>5 bal</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Noyabr</td><td>35 bal</td></tr>
<tr><td>Kurs işi (Layihə. Prezentasiya şəklində təqdim edilir)</td><td>Müəllimin təyin etdiyi vaxtda</td><td>10 bal</td></tr>
<tr><td>Yoxlama işi (quiz)</td><td>Aralıq imtahanı öncəsi<br>Final imtahanı öncəsi</td><td>10 bal<br>(5+5)</td></tr>
<tr><td>Final imtahanı</td><td>Yanvar</td><td>40 bal</td></tr>
<tr><td></td><td>Yekun</td><td></td><td>100 bal</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Aktivlik<br>Dərslərdə, diskussiyalarda, prezentasiyalarda və elmi seminarlarda iştirak etmək.<br>Davamiyyət<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>Dərsə gecikmə<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qaib yazılır. Buna baxmayaraq, tələbə dərsdə</td></tr>
</table>

iştirak edə bilər.

**Kurs işinin yazılı təqdimatı**

***<u>Yazı işinə aid qaydalar:</u>***

**1.** İş ayrıca vərəqlərdə yazılmalıdır. Kağızın formatı A4, şrifti 14, interval 1, işin həcmi 10-15 səhifə olmalıdır.

**2**. Vərəqin bir üzü yazılmalı, vərəqə nömrələr qoyulmalıdır.

**3**. İş aydın yazılmalı, fikirlərin abzaslara bölünməsi məntiqi olmalıdır, hər yeni fikirdə abzasdan istifadə edilməlidir. İşin girişi və nəticəsi olmalıdır.

**4.** İş yazılarkən mənbələrə istinad edilməlidir. İstinad qaydaları müəllim tərəfindən təqdim olunacaqdır.

**5.** Sonda istifadə olunmuş ədəbiyyatın siyahısı əlavə edilməlidir.

**6.** İşin titul vərəqind' mövzunun adı, tələbənin adı, soyadı, fakültəsi, işin yerinə yetirildiyi departament göstərilməlidir.

Müstəqil tədqiqat işlərinin prezentasiya şəklində verilməsi vacibdir. Prezentasiya vaxtı, sonunda müzakirə də daxil olmaqla 15-dəqiqədən artıq olmamalıdır.

**Yoxlama işi**

Kurs boyu iki yoxlama yazı keçirilməsi nəzərdə tutulur. Birinci yazı aralıq imtahanı öncəsi, ikincisi yekun imtahan qabağı. Hər yoxlama işi 5 bal ilə qiymətləndirilir.

Yoxlama işində iştirak etməyən tələbə qeyri-müvəffəq qiymət alır. Əgər tələbə üzürlü səbəbdən yoxlama işində iştirak edə bilməmiş və bu haqda dekanlığa məlumat vermişsə, o zaman həmin tələbə yoxlama işini növbəti həftə yaza bilər.

**İmtahanlar**

Aralıq imtahanı 1-8-ci mövzuları əhatə edir.Final

Final imtahanı 9-15-ci mövzuları əhatə edir.

Aralıq və yekun imtahanının mövzuları tələbələrə imtahandan əvvəl verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır.

**İmtahan qaydalarının pozuntuları**

Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişinin pozulması, imtahanda istifadəsinə yol verilməyən əlavə vəsaitlərdən (kitab, konspekt-dəftər, mövzunun yazıldığı vərəq, telefon, diktofon, mikrodinləyici qurğu və s.) istifadə edilməsi və köçürmə qadağandır. Bu qaydaya əməl etməyən tələbə imtahan zalından çıxarılır, onun imtahan işi ləğv olunur və tələbə imtahan zalından çıxarılır, onun imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qıymətlə imtahandan kənarlaşdırılır.

**Fənni bitirmək qaydası**

Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

**Tələbənin davranış qaydaları**

Dərs zamanı dərs prosesini pozmaq və qeyri-etik hərəkətlər etmək, yersiz və icazəsiz müzakirələr aparmaq, mobil telefondan, dinləyici qurğu və radiodan istifadə etmək, həmin dərsə aid olmayan digər fəaliyyətlə (kitab oxumaq, yazmaq, şəkil çəkmək və s.) məşğul olmaq qadağandır.

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix (planlaşdırılacaq)** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | | Mənbəşünaslıq kursuna giriş. | 12, 13 |

| | | | |
|---|---|---|---|
| | | Azərbaycan tarixinə dair qədim dövr mənbələri | 1, 12, 13 |
| 2. | | Azərbaycan tarixinə dair antik dövr mənbələri<br><br>Azərbaycan tarixinə dair Suriya mənbələri | 1, 12, 13, 29, 27<br><br>1, 12, 13 |
| 3. | | Erkən orta əsr türkdilli mənbələri<br><br>Azərbaycan tarixinə dair erməni və gürcü mənbələri | 1, 12, 13, 30<br><br>1, 11, 12, 13, 29 |
| 4. | | Azərbaycan tarixinə dair yerli narrativ mənbələr<br><br>Azərbaycan tarixinə dair ərəb mənbələri | 1, 3, 4, 11, 12, 13<br>1, 7, 8, 11, 12, 13, 14 |
| 5. | | Azərbaycan tarixinə dair farsdilli mənbələr<br><br>Azərbaycan tarixinə dair XVI-XIX əsr mənbələri | 1, 11, 12, 13, 17<br><br>1, 2, 11, 12, 13 |
| 6. | | XIX əsr – XX əsrin əvvəllərinə aid qanunvericilik sənədləri Azərbaycan tarixinə dair mənbə kimi<br><br>XIX əsr – XX əsrin əvvəllərinin tarixi və ədəbi əsərləri tarixi mənbə kimi | 1, 5, 11, 12, 13<br><br>1, 11, 12, 13 |
| 7. | | XIX– XX əsrin dövrü mətbuatı mənbə kimi<br><br>Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid mənbələr | 1, 11, 12, 13<br><br>1, 6, 11, 12, 13 |
| 8. | | Yeni dövr mənbələri, Sovet dövrünə aid mənbələr (II Respublika dövrü)<br><br>Tarixşünaslıq kursuna giriş | 1, 11, 12, 13<br><br>10, , 11, 33, 34 |
| **ARALIQ İMTAHANI** | | | |
| 9. | | Ən qədim zamanlardan XIV əsrə qədər tarixi biliklər.<br><br>XIV-XVIII əsrlərdə tarixi biliklərdə elmi istiqamətin yaranmasına doğru inkişaf | 2, 3, 4, 7, 8. 14. 15, 22<br><br>2, 10, 11, 12, 13 |
| 10 | | XIX-XX əsrin əvvəllərində Azərbaycan tarixşünaslığı<br><br>XIX əsrin II yarısı-XX əsrin əvvəllərində Azərbaycan tarix elminin inkişafına rus tarixşünaslığının təsiri | 21, 33<br><br>21, 33 |
| 11 | | Azərbaycanın arxeoloji və etnoqrafik cəhətdən tədqiqi<br><br>Azərbaycanın qədim tayfa və dövlətləri tarixinin öyrənilməsi | 10, 11, 21. 33<br><br>22, 27. 29 |
| 12 | | Azərbaycan qədim dövlətlərinin ilkin orta əsrlər dövrü tarixşünaslığı | 8, 14, 15 |

| | | | |
|---|---|---|---|
| | | Orta əsrlər dövrü tarixinin tədqiqində əsas istiqamətlər | **17, 26** |
| 13. | | XIX-XX əsrin əvvəlləri tarixinin tədqiqi. Azərbaycan xanlıqları və onların Rusiya tərəfindən işğalının tarixşünaslığı<br><br>Azərbaycanın 1917-1920-ci illər tarixinə yeni baxış | 23<br><br>20. 25, 28 |
| 14. | | 20-30-cu illərdə Azərbaycan mühacir tarixşünaslığı<br><br>Azərbaycanda sovet hakimiyyətinin qurulmasına dair əsərlər | |
| 15. | | Azərbaycan tarixinin sovet tarixşünaslığı<br><br>Müasir dövrün tarixi problemləri tarixşünaslıqda | |
| **FİNAL İMTAHANI** | | | |

## TƏQDİMAT MÖVZULARI

1. Azərbaycanın IX-XII əsr iqtisadi həyatı ərəbdilli qaynaqlarda
2. Monqol hücumları dövrü qaynaqları
3. Mixi yazı parçaları Azərbaycanın qədim tarixinə dair mənbə kimi
4. Azərbaycanın antik dövr etnik xəritəsi Yunan-Roma müəlliflərinin əsərində
5. Kitabi Dədə Qorqud dastanı tarixi mənbə kimi
6. XIII-XIV əsrlərdə Azərbaycanın ictimai-siyasi mühiti Fəzlullah Rəşidəddinin "Came ət-təvarix" əsərində.
7. Adam Olearinin "Moskovya və Moskovydan keçməklə İrana, oradadn da geriyə səyahətinin təsviri" əsəri Azərbaycanın XVII əsr tarixinə dair mənbə kimi. *.Адам Олеари. Описание путешестивия в Московию и через Московию в Персию и обратно. СПб., 1906.*
8. XVI əsrin tanınmış ingilis səyyahı Antoni Cenkinsonun "Gündəlik" əsərində Azərbaycanın iqtisadi təsviri. . *Ангилиские путешественники в Московском государстве в XVI веке», Л., 1937, с. 202-205, 207-211, 215.*
9. Evliya Çələbinin. «Səyahətnamə»sində XVII əsr Azərbaycan şəhərlərinin təsviri.
10. Azərbaycanın XVII əsrdə Azərbaycanın sosial-iqtisadi həyatının təsviri Yan Streysin «Səyahət» əsərində. . *Стрейс Я.Я.Три путешествия. М., 1935*
11. A.A.Bakıxanov və Azərbaycan tarixşünaslığında yeni mərhələnin başlanması.
12. Azərbaycan tarixi üzrə memuar xarakterli mənbələr.
13. Azərbaycan tarixi üzrə sənəd tipli mənbələr
14. Azərbaycanın II Dünya müharibəsində iştirakının tarixşünaslığı.
15. Səfəvilər dövlətində Azərbaycan dilinin rəsmi dil kimi işlədilməsini təsdiq edən mənbələr
16. Azərbaycan tarixi üzrə salnamə tipli mənbələr (nəsrani mənbələr).
17. Qafqaz İslam Ordusunun tarixşünaslığı.
18. Azərbaycanın Rusiya tərəfindən işğalına tarixi baxış.
19. Səfəvi dövləti dünya tarixşünaslığında
20. Dövri mətbuat AXC tarixinə dair mənbə kimi
21. Məhəmməd Əmin Rəsulzadənin tarixi irsi
22. "Kitabi-Dədə Qorqud" və Səfəvi dövrü mənbələrinin müqayisəli təhlili
23. Avropa səyyahlarının (Jean Chardin, Adam Olearius və s.) Azərbaycan haqqında müşahidələri
24. Rusiya arxivlərində saxlanılan sənədlərin Azərbaycan xanlıqları tarixinin öyrənilməsində rolu
25. XIX əsr rus səyyahlarının qeydləri – Azərbaycan sosial-iqtisadi həyatına dair mənbə
26. tarixi Azərbaycan ərazisi antik yunan və Roma müəlliflərinin əsərlərində (Strabon, Plutarx, Ptolemey və s.)
27. Qədim mixi yazılar və onların Azərbaycan ərazisinin tarixi üçün əhəmiyyəti
28. Folklor nümunələri – xalq yaddaşında tarixi hadisələrin qorunması
29. 20 Yanvar hadisələri haqqında şahid ifadələri və arxiv materialları
30. Qarabağ münaqişəsinə dair beynəlxalq təşkilatların sənədləri (BMT, ATƏT və s.) tarixi mənbə kimi